

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 28 noyabr 2026-cı il №84 (3086) https://mod.gov.az Qiyməti 30 qəpik

Qartal… Ucalığın, azadlığın və vüqarın rəmzi. Təbiətin bu əzəmətli varlığı özünə məskən seçərkən sıldırım qayalara, əlçatmaz zirvələrə üstünlük verir. Dağların ən uca nöqtələrində yuva salır, qayalıqların üzərində qanad açaraq səmanın sonsuzluğuna yüksəlir. Güclü qanadları ilə hava axınlarından məharətlə yararlanıb bəzən uzun müddət qanad çalmadan da yüksəkliklərdə süzür. İti baxışları ilə ətrafı seyr edir, dağların, dərələrin, qayalıqların üzərində dövrə vurur. Sanki bu ucalıqlar onun hakimiyyət məkanı, bu geniş səma isə azadlığının sərhədsiz ifadəsidir. Qartalın vüqarlı uçuşunda bir əzəmət, yüksəkliklərdəki duruşunda isə özünəməxsus bir məğrurluq var.

Reportaj

Azərbaycan əsgəri qartaltək ucalıqda ana Vətənimizin keşiyindədir



Elə Vətənimin uca zirvələrində də qartalın vüqarını xatırladan başqa bir mənzərə ilə qarşılaşmaq üçün yola çıxmışıq. Hansı ki, o zirvələrdə məğrur Azərbaycan əsgəri qərar tutub. Qartal yüksəkliklərdə qanad açdığı kimi, Vətən müdafiəçilərimiz də uca zirvələrdə dayanaraq torpaqlarımızın keşiyini çəkir. Onlar üçün bu yüksəkliklər sadəcə xidmət yeri deyil, həm də müqəddəs bir əmanətin - qəhrəman şəhidlərimizin canı-qanı bahasına azad edilmiş torpaqlarımızın qorunduğu mövqelərdir. Burada xidmət edən hər bir hərbi qulluqçu üzərinə düşən vəzifənin məsuliyyətini dərindən dərk edir, içdiyi Hərbi Anda sadiqlik nümayiş etdirir.

Dağların qoynunda irəlilədikcə ətrafımızdakı mənzərənin gözəlliyi insanı valeh edir. Sıldırım qayalar, bir-birini əvəz edən dağ silsilələri, başı göylərə ucalan zirvələr… Elə bu mənzərənin içində başımızın üzərində bir qartal görünür. Qanadlarını geniş açaraq səmada süzür, gah yüksəklərə qalxır, gah da sanki yolumuzu müşayiət edirmiş kimi üzərimizdə dövrə vurur. Baxışlarımızı ondan ayıra bilmirik. Elə bil bu əzəmətli quş öz səssiz uçuşu ilə bizə nəsə anlatmaq, bu zirvələrin əsl gözəlliyini göstərmək istəyir. Bəlkə də bizi bu yüksəkliklərdə Vətənin keşiyində dayanan oğullarımızla yaxından tanış olmağa çağırır… Yolumuza davam edirik. Qarşıda bizi Vətənimin uca zirvələrində keşik çəkən Azərbaycan əsgəri gözləyir.

(Ardı 3-cü səhifədə)

Azərbaycan Respublikasının müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülerə başsağlığı verib.

Başsağlığında deyilir: “Eskişehir şəhərində AS-532 tipli hərbi helikopterin qəzaya uğraması nəticəsində beş nəfər hərbi qulluqçunun həlak olması haqqında xəbər məni dərindən kədərləndirdi.

Həlak olan hərbi qulluqçulara Allahdan rəhmət diləyir, yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin”.

MMU-nun nümayəndələri beynəlxalq hərbi-elmi konfransda iştirak ediblər

Belarusun Minsk şəhərində VIII Beynəlxalq hərbi-elmi konfrans keçirilib.

Milli Müdafiə Universiteti xəbər verir ki, müxtəlif ölkələrin tanınmış alimlərinin, hərbi və elmi qurumlarının nümayəndələrinin iştirak etdiyi konfransda Azərbaycanı ölkəmizin Belarusdakı hərbi attaşesi polkovnik Aydın Rəhimov və Milli Müdafiə Universitetinin nümayəndəsi, tarix üzrə fəlsəfə doktoru Yəhya Babanlı təmsil ediblər. Bununla yanaşı,





Hərbi Elmi-Tədqiqat İnstitutunun professorları Nurulla Əliyev və Ziyafət Həbibova konfransda onlayn formatda iştirak ediblər.

Konfransda hərbi elm və müdafiə texnologiyalarının inkişafı, süni intellektin hərbi sahədə tətbiqi, pilotsuz uçuş aparatları və müasir döyüş əməliyyatlarının modelləşdirilməsi məsələləri müzakirə olunub. Həmçinin iştirakçılar Belarusun hərbi və elmi müəssisələrinin nailiyyətləri ilə də tanış olublar.

Biz Zəfərin əsgərləriyik

Payız fəsli təbiətin özünəməxsus rəng çalarlarına büründüyü, ağacların yarpaqlarını tökərək qışa hazırlaşdığı bir dövrdür. Xalqımız bu fəsli tamam başqa duyğularla yaşayır. 2020-ci ilin payızı ölkəmizin tarixinə şanlı Zəfərin qazanıldığı dövr kimi yazıldı. Sentyabrın 27-də başlayan Vətən müharibəsi noyabrın 10-da tarixi Qələbəmizlə başa çatdı. 44 gün davam edən müharibə dövlətimizin başçısının qətiyyətini, xalqımızın iradəsini, ordumuzun gücünü və hərbi qulluqçularımızın misilsiz qəhrəmanlığını bütün dünyaya nümayiş etdirdi. İşğal altındakı torpaqlarımız azad edildi, üçrəngli Dövlət Bayrağımız doğma yurdumuzda yenidən dalğalandı. Beləliklə, 2020-ci ilin payızı Azərbaycan xalqının yaddaşında Zəfərin rəmzinə çevrildi.

Bu gün həmin Qələbənin qürurunu yaşayan hər bir hərbi qulluqçu üçün qalib orduda xidmət etmək həm böyük şərəf, həm də məsuliyyətdir. Bu düşüncələrlə hərbi hissələrdən birində Vətən müdafiəçiləri ilə “Qalib Azərbaycan Ordusunda xidmət etmək hər bir əsgər üçün qürurdur” mövzusunda disput keçirdik.

Müzakirənin əvvəlində qeyd olundu ki, qalib ordunun sıralarında xidmət etmək sadəcə hərbi forma geyinmək və gündəlik vəzifələri yerinə yetirməkdən ibarət deyil. Bu, həm də xalqın tarixinə, şəhidlərimizin əziz xatirəsinə və qazanılmış Zəfərə layiq olmaq deməkdir. Hər bir hərbi qulluqçunun xidmətə münasibəti, hərbi nizam-intizamı, döyüş hazırlığı və üzərinə düşən tapşırıqları məsuliyyətlə icra etməsi ordumuzun gücünə verilən töhfədir.

Mövzu ətrafında ilk fikirlərini bölüşən gizir Elvin Mədətov bildirdi ki, hərbi xidmət hər bir vətəndaşın Vətən qarşısında müqəddəs övladlıq borcudur: “Bu borcun yerinə yetirilməsi insanın doğma torpağa, dövlətə və xalqa bağlılığının ifadəsidir. Qalib ordunun hərbi qulluqçusu isə üzərinə düşən məsuliyyəti daha dərindən dərk etməli, xalqımızın qazandığı tarixi nailiyyətlərə layiq xidmət göstərməlidir”.

(Ardı 6-cı səhifədə)

İctimai-siyasi hazırlıq taktiki hazırlıq qədər önəmlidir

Şəxsi heyətin döyüş və mənəvi hazırlıqlarının artırılmasında ictimai-siyasi hazırlığın xüsusi əhəmiyyəti vardır. Taktiki, atəş, kəşfiyyat və başqa hazırlıqlarda atəş açmağın və taktiki gedişlərin sirləri öyrədilirsə, ictimai-siyasi hazırlıq dərslərində vətənpərvərlik ruhu aşılanır.

İctimai-siyasi hazırlıq dərsini müxtəlif mövzular əhatə edir. Azərbaycanın ən qədim dövrlərindən bu günümüzə qədər olan tarix öyrədilir. Xalqımızın dövlətçilik ənənəsi qədim dövrlərə söykənir. Biz bunu ölkəmizdə olan tarixi abidələrdən də görə bilirik. Tarixdən gələn qalalar, saraylar, məbədlər müxtəlif dövrlərdə inşa edilərək günümüzə qədər gəlib çıxmışdır. Ta qədim dövrlərdən üzü bu yana xalqımız çoxlu yadellilərin hücumlarına məruz qalıb. Amansız müharibələrin qoyduğu izlər bir çox abidələrin, şəhərlərin yerlə-yeksan edilməsinə səbəb olub.

1980-ci illərin sonunda Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə qarşı açıq-aydın iddiaları on illərlə davam edəcək müharibəyə səbəb olmuşdur. Azərbaycan xalqı tarixən döyüşən xalq olub. Ermənistanın hərbi-siyasi rejimi güclü havadarlarının köməkliyi ilə Azərbaycanın əzəli və əbədi ərazisi olan Qarabağı və ətraf rayonları işğal etdilər. Torpaqların işğalına və bir milyondan artıq soydaşımızın yerindən-yurdundan didərgin düşməsinə səbəb oldular. Azərbaycan xalqı düşmənin nə qədər güclü olmasına baxmayaraq torpaqların işğalı ilə barışmadı. Azərbaycan dövləti hər zaman Birləşmiş Millətlər Təşkilatının tanıdığı ərazisini bərpa etmək istiqamətində davamlı tədbirlər gördü. Beləliklə, 2020-ci il sentyabrın 27-də başlayan əks-hücum əməliyyatı 30 ilə yaxın Ermənistanın işğal altında saxladığı torpaqlarımızın azad edilməsi istiqamətində aparılan uğurlu hərbi əməliyyat idi.

Azərbaycanın hərb tarixinə İkinci Qarabağ müharibəsi kimi daxil olan və cəmi 44 gün davam edən bu müharibəni apardığımız müharibələr arasında ən uğurlusu hesab etmək olar. Birinci Qarabağ müharibəsi elə bir dövrə təsadüf olmuşdur ki, o zaman xalqımız yenicə yetmiş illik sovet imperiyasının tərkibindən çıxaraq müstəqilliyə qədəm qoymuşdur. Xalqımız tarixin ən çətin dövrünü yaşayırdı. Bir yandan ermənilərin torpaq iddiası, bir yandan da hakimiyyətin yarımaz idarəçiliyi. Hakimiyyət boşluğu ölkə daxilində xaos yaratmışdı, az qala vətəndaş müharibəsi baş qaldıracaqdı.

(Ardı 5-ci səhifədə)

Azərbaycan Ordusunun Baş Qərargah rəisi Tacikistanın hərbi nümayəndə heyəti ilə görüşüb

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan Tacikistan Respublikası Silahlı Qüvvələri Baş Qərargahının Əməliyyat İdarəsinin rəisi general-mayor Şaraf Egamzodun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.




Müdafiə Nazirliyi xəbər verir ki, qonaqları salamlayan Baş Qərargah rəisi ölkələrimiz arasında hərbi əməkdaşlığın vəziyyətindən məmnunluğunu ifadə edib, bu əməkdaşlığın gələcəkdə hərbi əlaqələrin daha da genişləndirilməsinə töhfə verəcəyini diqqətə çatdırıb.

Səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən general-mayor Ş.Egamzod ölkəmizə səfər etməsindən məmnun olduğunu bildirib, bu cür görüşlərin, o cümlədən müdafiə sahəsində təcrübə mübadiləsinin aparılmasının ordularımız arasında əlaqələrin daha da inkişaf etdirilməsində vacib rol oynadığını xüsusi vurğulayıb.



Görüşdə Azərbaycan ilə Tacikistan arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilib.

Türkiyənin MMU-nun nümayəndə heyəti ölkəmizdə tədris gəzintisindədir









Türkiyə Respublikası Milli Müdafiə Universiteti rektorunun müavini Talat Canbolatın rəhbərlik etdiyi nümayəndə heyəti tədris gəzintisi proqramı çərçivəsində ölkəmizdə səfərdədir.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə qonaqlar Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanını və Türk Şəhidliyini ziyarət edib, gül dəstələri qoyub, xatirələrinə dərin ehtiram nümayiş etdiriblər.

Proqram çərçivəsində nümayəndə heyəti Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülovla görüşüb. Görüşdə hərbi təhsil sahəsində əməkdaşlıq əlaqələri və qarşılıqlı təcrübə mübadiləsi məsələləri müzakirə olunub. Sonda tərəflər qarşılıqlı hədiyyələr təqdim ediblər.

Səfər çərçivəsində nümayəndə heyəti MMU-nun tabeliyində fəaliyyət göstərən Cəmşid Nasirəddin-Tusi adına Hərbi Liseydə, Qənimətlər Parkında və Heydər Əliyev Mərkəzində olub.



Tacikistan Müdafiə Nazirliyinin nümayəndə heyəti ölkəmizdə səfərdədir

Tacikistan Respublikası Müdafiə Nazirliyinin nümayəndə heyəti döyüş əməliyyatlarının tətbiqi, modelləşdirilməsi və simulyasiyası sahəsində təcrübə mübadiləsi məqsədilə ölkəmizə səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, nümayəndə heyəti Müdafiə Nazirliyinin bir sıra strukrur bölmələrini ziyarət edərək burada yaradılmış xidməti şəraitlə tanış olub, təcrübə mübadiləsi aparıblar. Qonaqlara nazirliyin aidiyyəti qurumları və onların fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib, maraq doğuran suallar cavablandırılıb.



Bundan başqa, Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində olan qonaqlara Mərkəzin fəaliyyəti, həmçinin kompüter dəstəkli komanda-qərargah təlimlərinin təşkili və keçirilməsi barədə məlumat verilib.



Azərbaycan əsgəri qartaltək ucalıqda ana Vətənimizin keşiyindədir



(Əvvəli 1-ci səhifədə)

Nəhayət, döyüş növbətçiliyi aparan bölməyə çatırıq. İlk diqqətimizi çəkən şəxsi heyətin nizam-intizamı və yüksək əhval-ruhiyyəsi olur. Dağların qoynunda, yüksəklikdə yerləşən mövqedə xidmətin özünəməxsus çətinlikləri var. Dağlıq relyef, sərt hava şəraiti, yüksəkliklərin yaratdığı fiziki çətinliklər hərbi qulluqçulardan dözümlülük, iradə və daim ayıq-sayıq olmağı tələb edir. Lakin Azərbaycan əsgəri üçün Vətənin müdafiəsi hər cür çətinlikdən üstündür.

Bölmədə bizi qarşılayan baş leytenant Z.Əhmədzadə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olduğunu, hərbi qulluqçuların xidmətə böyük məsuliyyətlə yanaşdıqlarını bildirir. Onun sözlərinə görə, əsgərlərimiz azad edilmiş torpaqlarımızda xidmət etməyin məsuliyyətini və qürurunu yaxşı dərk edirlər. “Şəxsi heyətin döyüş hazırlığının artırılması, eləcə də mənəvi-psixoloji vəziyyətinin daim yüksək səviyyədə saxlanılması istiqamətində məqsədyönlü islahatlar aparılır. Hər bir hərbi qulluqçuya fərdi yanaşılır, qarşılıqlı etimad və hörmətə əsaslanan münasibətlər formalaşdırılır”.

Ətrafı seyr etdikcə bir daha əmin oluruq ki, bu yüksəkliklərdə xidmət etmək, döyüş növbətçiliyi aparmaq həm böyük məsuliyyət, həm də qürurverici bir missiyadır. Bir vaxtlar işğal altında olan, uzun illər həsrətini çəkdiyimiz bu torpaqlarda indi üçrəngli bayrağımız dalğalanır, Azərbaycan əsgəri ayıq-sayıq, isti-soyuq demədən döyüş növbətçiliyi aparır. Bu mənzərə insanın qəlbində qürur hissi yaradır. Çünki burada olmaq, torpaqlarımızı qorumaq həm də Vətən qarşısında övladlıq borcudur.

İlk həmsöhbətimiz müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Kənan Quliyev olur. Əslən Tovuz rayonundan olan hərbi qulluqçumuz qeyd edir ki, Vətənimizin müdafiəsində dayanmaq hər bir hərbi qulluqçu üçün böyük şərəfdir. “Hərbi qulluqçu üçün Vətən sevgisi hərbi



xidmətin əsas mənəvi dayağıdır. Vətənini sevmək, onun hər qarışını qorumaq nümunəvi xidmətin başlıca şərtlərindəndir. Bizim üçün burada xidmət etmək böyük fəxrdir. Çünki qoruduğumuz torpaqların hər qarışının hansı mübarizə və fədakarlıq bahasına azad edildiyini yaxşı bilirik.



Bu gün şəhidlərimizin qanı ilə suvarılmış bu torpaqları qorumaq bizə həvalə olunub. Bunun məsuliyyətini dərindən dərk edir, üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışırıq. Dağlıq ərazilərdə, sərt iqlim şəratində xidmət etməyin öz çətinlikləri var, ancaq Vətənə xidmətin qüruru bütün çətinlikləri üstələyir”, - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər K.Quliyev vurğulayır.

Söhbət zamanı hərbi qulluqçuların xidmət şəraitinə, gündəlik təminatına da toxunuruq. Baş leytenant Z.Əhmədzadə qeyd edir ki, çətin relyefli ərazidə xidmət etmələrinə baxmayaraq, şəxsi heyətin bütün zəruri ehtiyacları nəzərə alınır. Hərbi qulluqçuların qidalanması, geyim və digər təminat məsələləri qaydasındadır. Dövlətimizin, komandanlığın diqqəti və qayğısı isə onların xidmətə daha böyük ruh yüksəkliyi ilə yanaşmasına müsbət təsir göstərir.

Döyüş növbətçiliyindən qayıdan əsgər Mirsahib Əhmədov ilə söhbət edir, fikirlərini öyrənirik. Cəlilabad rayonundan ordu sıralarına çağırılan Vətən müdafiəçisi xidmət müddətində dünyagörüşünün, Vətənə bağlılığının daha da gücləndiyini deyir. “İnsan hərbi xidmətə başladıqdan sonra Vətənin, ailəsinin, doğmalarının qədrini daha dərindən anlayır. Burada qazandığımız təcrübə, öyrəndiyimiz biliklər həyatımızda mühüm yer tutur. Xidmət müddətində Vətənə sevgim daha da artıb. Bu gün burada torpaqlarımızı qorumaq mənim üçün böyük şərəfdir. Buradan bütün xalqımıza səslənərək bildirmək istəyirəm ki, rahat olun, bizə güvənin. Əmin olun ki, Azərbaycan əsgəri üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirir, Vətənin keşiyində ayıq-sayıq dayanır”, - deyə əsgər M.Əhmədov bildirir.

Əsgər Murad Fərəczadə ilə söhbətimiz zamanı isə döyüş növbətçiliyinin məsuliyyəti, ayıq-sayıqlığın əhəmiyyəti barədə danışırıq. O, xidmət zamanı verilən tapşırıqların vaxtında və dəqiq yerinə yetirilməsinin vacibliyini vurğulayır. Bildirir ki, hərbi qulluqçu bilik və bacarıqlarını daim artırmalı, ona təhkim olunmuş silah xüsusiyyətlərini dərindən mənimsəməlidirlər. “Döyüş növbətçiliyi böyük diqqət və məsuliyyət tələb edir. Biz komandirlərimizin tapşırıqlarını dəqiq yerinə yetirməyə hər an hazır olmalıyıq. Müharibə başa çatsa da, hazırlığımızı davam etdirir, bilik və bacarıqlarımızı təkmilləşdiririk. Çünki torpaqlarımızın müdafiəsi daim ayıq-sayıq olmağı, üzərimizə düşən vəzifəyə ciddi yanaşmağı tələb edir. Burada xidmət etməkdən qürur duyuruq”, - deyə M.Fərəczadə söyləyir.

Əsgər Vüsal Dəmirçiyev ilə söhbətimizdə isə komandirlərlə şəxsi heyət arasındakı münasibətlərdən danışırıq. Onun sözlərinə görə, bölmədə qarşılıqlı hörmət, etimad və doğmalıq hökm sürür. Komandirlər əsgərlərin qayğıları ilə maraqlanır, onların hərbi bilik və bacarıqlarının artırılmasına, xidmətə uyğunlaşmasına xüsusi diqqət yetirirlər. “Komandirlərimizlə münasibətimiz çox doğmadır. Onların diqqət və qayğısını hər zaman hiss edirik. Bizə yalnız hərbi bilikləri öyrətməklə kifayətlənmir, həm də təcrübələrini bölüşür, Vətənə sədaqət, mərdlik və məsuliyyət kimi dəyərləri aşılayırlar. Hər hansı çətinliyimiz olduqda onlara çəkinmədən müraciət edə bilirik. Bu münasibət bizdə inam və birlik yaradır. Burada bütün təminatlarımız yerindədir, xidmətimiz üçün lazımi şərait yaradılıb. Biz də öz növbəmizdə göstərilən etimadı doğrultmağa, üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırıq”, - deyə V.Dəmirçiyev bildirir.



Vətən müdafiəçisi olan əsgərlər Rauf Abbasov, Ömər Həşimov, Aqil Orucov, Pərviz Atakişiyev və digərləri Vətən torpağının müdafiəsində dayanmağın qürurunu yaşadıqlarını söyləyirlər. Onların fikirlərində ortaq bir məqam xüsusilə diqqət çəkir: harada, hansı şəraitdə xidmət etmələrindən asılı olmayaraq, hər biri üçün əsas məqsədin Vətənin müdafiəsi, Hərbi Anda sədaqət və onlara göstərilən etimadı doğrultmaq olduğunu bildirirlər. Döyüş növbətçiliyində xidmət edən bu vətənpərvər gənclər həm də xalqımızın onlara olan inamını özlərinin mənəvi məsuliyyəti hesab edirlər.



Söhbətlərimizdən sonra döyüş mövqeyinin ətrafında bir daha nəzərlərimizi dağlara yönəldirik. Uca zirvələr və geniş üfüqlər insanı öz əzəməti ilə heyran edir. Bu mənzərənin içində Azərbaycan əsgərinin duruşu xüsusi məna daşıyır. O, Vətən torpağının etibarlı keşikçisi, dövlətimizin müdafiə qüdrətinin canlı təcəssümüdür. Onun ayıq-sayıq baxışları, məğrur, qətiyyətli duruşu və xidmətə məsuliyyətli münasibəti bu zirvələrdəki əmin-amanlığın təmin olunmasına xidmət edir.

Vətən sevgisi yalnız xoş sözlərdə, duyğulu ifadələrdə deyil, həm də əməli fəaliyyətdə, məsuliyyətli xidmət və fədakarlıqda özünü göstərir. Bu gün döyüş növbətçiliyi aparan hərbi qulluqçularımız məhz belə bir sevginin daşıyıcılarıdır. Onlar azad edilmiş torpaqlarımızın müdafiəsini özlərinin müqəddəs vəzifəsi hesab edir, bu vəzifənin öhdəsindən layiqincə gəlmək üçün çalışırlar. Şəhidlərimizin bizə əmanət etdiyi torpaqlarımızı qorumaq, dövlətimizin təhlükəsizliyini təmin etmək və xalqımızın etimadını doğrultmaq onların xidmət amalına çevrilib.

Yola düşərkən bir qədər əvvəl başımızın üzərində süzən, uca zirvələrində qanad açan qartal yenidən xatirimizə gəlir. Bu yüksəkliklərdə isə Azərbaycan əsgəri dayanmışdı. Qartalın azad uçuşu, dağların əzəməti və əsgərlərimizin vüqarlı duruşu yaddaşımızda vahid bir mənzərə kimi canlanır. Hər birinin öz məkanı, öz missiyası var. Qartal səmanın sonsuzluğunda qanad çalır, Azərbaycan əsgəri isə Vətənin müqəddəs torpaqlarında ayıq-sayıq keşik çəkir. Bir daha əmin olduq ki, Qartaltək ucalıqlarda qərar tutan Azərbaycan əsgəri Vətənin zirvələrində öz vüqarı, iradəsi və sədaqəti ilə dayanır!

Baş leytenant
Elçin İMANOV
“Azərbaycan Ordusu”,
fotolar
kiçik gizir
Coşqun CƏFƏROVUNDUR

Hərbi təhsil

Gələcəyin zabitlərinin yetişməsində müharibə təcrübəsi

Hərbi təhsil nəzəri biliklərin mənimsənilməsi ilə yanaşı, döyüş təcrübəsinin, peşəkar bacarıqların, mənəvi-psixoloji hazırlığın və Vətənə xidmət məsuliyyətinin gənc nəslə ötürülməsi prosesidir. Xüsusilə Vətən müharibəsində qazanılan təcrübənin Milli Mudafiə Universitetinin tabeliyində fəaliyyət göstərən hərbi təhsil müəssisələrində tədrisə inteqrasiyası gələcəyin zabitlərinin formalaşmasında mühüm əhəmiyyət daşıyır.



Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Hava Qüvvələri fakültəsində təhsil alan kursantlar gələcəkdə ölkəmizin hava məkanının mühafizəsində, aviasiya və hava hücumundan müdafiə sahələrində xidmət edəcək zabitlərdir. Onların peşəkar hazırlığı müasir silah və texnikanın öyrənilməsi ilə yanaşı, mürəkkəb şəraitdə düzgün qərar qəbul etmək, məsuliyyət daşımaq, iradə və döyüş ruhu nümayiş etdirmək kimi keyfiyyətlərin formalaşdırılmasını da tələb edir. Bu baxımdan müharibə təcrübəsi olan zabitlərin və müəllimlərin tədris prosesində iştirakı xüsusi əhəmiyyət kəsb edir. Çünki döyüş şəraitində qazanılmış biliklər, qarşıya çıxan çətinliklərin həlli yolları və real əməliyyat təcrübəsi kursantların nəzəri hazırlığını daha da zənginləşdirir. Müharibədə qazandığı təcrübəni davamçılarına ötürən belə şəxslərdən biri də Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Səfər Qurbanovdur. Azərbaycanın ərazi bütövlüyünün bərpasında göstərdiyi xüsusi xidmətlərə, işğal olunmuş ərazilərimizin azad edilməsi zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən nümayiş etdirdiyi qəhrəmanlığa, hərbi vəzifəsinin icrası zamanı göstərdiyi igidlik və mərdliyə görə Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Səfər Qurbanova "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. O, həmçinin "Heydər Əliyevin 100 illiyi", "Qarabağ" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Səfər Qurbanov hazırda Hava hücumundan müdafiə kafedrasının rəisi olaraq xidmətinə davam edir. Onun sözlərinə görə, Hərbi Hava Qüvvələri fakültəsində hava hücumundan müdafiə və aviasiya istiqamətləri üzrə tədrisin keyfiyyətinin yüksəldilməsi üçün həm nəzəri, həm də praktiki biliklərin vəhdəti vacibdir.

"Burada Vətən müharibəsi iştirakçısı olan müəllimlərimizin, olması gələcək uğurlara inamımı daha da artırır. Nəzəriyyəni öyrətmək vacibdir, lakin onun praktiki tərəfini də çatdırmaq lazımdır. Biz bu təcrübəni özümüz yaşamışıq. Aviatorlarımız müharibədə xüsusi fəaliyyət göstəriblər. Vətən müharibəsində şəhid olan qəhrəman pilotlarımız var. Eyni zamanda, hava hücumundan müdafiə silahları sahəsində də müharibə təcrübəmiz mövcuddur", - deyə zabit bildirdi.



Polkovnik-leytenant qeyd etdi ki, müharibə iştirakçısı olan müəllimlərin kursantlarla ünsiyyəti təkcə dərs prosesində deyil, gündəlik münasibətlərdə də öz təsirini göstərir. "Hələ gənc yaşlarından böyük məsuliyyət daşımağa hazırlaşan kursantlar qarşılarında real döyüş təcrübəsi olan zabitləri gördükdə onların bilik və təcrübəsindən yararlanmağa xüsusi maraq göstərirlər.

Kursantlarımızın əksəriyyəti hələ 17 yaşındadır. Onlar qarşısında müharibə keçmiş zabiti, döyüşlərdə yaralananları, veteranları gördükdə xidmətin məsuliyyətini hiss edirlər. Hətta gündəlik söhbətlərində, davranışlarında da müəllimlərinə, onların keçdiyi döyüş yoluna böyük hörmət və ehtiram bəslədikləri görünür. Bir veterandan, qazidən, dərs almaq onlar üçün qürurvericidir. Biz də gələcəyimiz olan bu gənclərə bildiklərimizi səmimi şəkildə öyrətməyə çalışırıq. Özümüzün də bilmədiyimiz və ya təkmilləşdirməyə ehtiyac duyduğumuz məqamlar olduqda yeni ədəbiyyatlara müraciət edir, araşdırmalar aparırıq".

Müasir hərbi əməliyyatlar silah və texnologiyaların inkişafı ilə səciyyələnsə də, döyüş meydanında həlledici amillərdən biri yenə də insanın hazırlığı, iradəsi və mənəvi dayanıqlığıdır. Hərbi qulluqçunun texnikanı mükəmməl bilməsi qədər, çətin və gözlənilməz şəraitdə davranışı, verilən tapşırığı düzgün dərk edərək məsuliyyətlə yerinə yetirməsi də vacibdir.

Polkovnik-leytenant Səfər Qurbanov gənc nəslin hərbi hazırlığında vətənpərvərlik və mənəvi-psixoloji dayanıqlığın formalaşdırılmasını təməl hesab edir.

"Birinci növbədə vətənpərvərlikdir. Mənəvi-psixoloji hazırlıq insanın döyüşə hazır olmasının əsas şərtlərindəndir. Hava hücumundan müdafiə üzrə atəş qaydalarında da şəxsi heyətin mənəvi-psixoloji hazırlığına xüsusi yer ayrılır. İnsan, ilk növbədə, mənəvi və psixoloji cəhətdən hazır olmalıdır, bundan sonra silah və texnika gəlir. Dövlətimizin başçısı da dəfələrlə vurğulayıb ki, nə qədər müasir silahlarımız və texnikamız olsa da, əsas amil insandır. Bu, əsgərə də, kursanta da, zabitə də aiddir".

Zabit hesab edir ki, müasir silah sistemlərinin və texnikanın öyrənilməsi də kursantların peşəkar inkişaf etməsində mühüm rol oynayır. Ölkəmizin müdafiə imkanlarının gücləndirilməsi, hava hücumundan müdafiə vasitələrinin yenilənməsi və aviasiyanın inkişafı tədris prosesində də yeni yanaşmaların tətbiqini zəruri edir.

"Bu gün texnikalarımız modernləşir, yeni silah sistemləri istifadəyə verilir. Kursantlarımızın müasir texnikanı öyrənməsi, onun imkanlarını dərindən mənimsəməsi vacibdir. Sevindirici haldır ki, onlar dünya səviyyəsində olan texnologiyalarla tanış olmaq imkanı əldə edirlər. Bu yeniliklərə maraq göstərmək, daim öyrənmək və öz üzərində işləmək lazımdır. Hərbi xidmət asan deyil. Bəzən dərslərdə, yaxud poliqon məşğələlərində çətinliklərlə qarşılaşmaq mümkündür. Ancaq bu çətinliklər heç vaxt ruhdan düşməyə səbəb olmamalıdır. Kursantlar gələcəyin zabitləridir. Onların düşüncəsində yalnız irəli getmək, daha çox öyrənmək və özlərini inkişaf etdirmək prinsipi olmalıdır", - deyə kafedra rəisi fikirlərini tamamlayır.

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən hərbi təhsil müəssisəsində formalaşan bilik və bacarıqların əsas qiyməti onların gələcək xidmət zamanı tətbiqində üzə çıxır. Bu gün auditoriyada, tədris meydanında və poliqonda öyrənilən hər bir bilik sabah məsuliyyətli qərarların qəbulunda, döyüş tapşırıqlarının icrasında və dövlətimizin müdafiə qüdrətinin qorunmasında mühüm rol oynaya bilər.

Hərbi Hava Qüvvələri fakültəsinin kursantları da seçdikləri peşənin məsuliyyətini dərk edir, müəllimlərinin təcrübəsindən yararlanaraq gələcək xidmətə hazırlaşırlar. Onların fikrincə, hərbi təhsil yalnız ixtisas biliklərinin mənimsənilməsi deyil, həm də xarakterin, iradənin və Vətənə sədaqətin formalaşmasıdır.

Kursant Aytən Ağayeva hesab edir ki, xüsusi təyinatlı təhsil müəssisəsində qazanılan biliklər gələcək zabit kimi formalaşmasında mühüm rol oynayır: "Hərbi təhsil bizdən daim intizamlı, məsuliyyətli və diqqətli olmağı tələb edir. Hər bir dərs və məşğələ gələcək xidmətimiz üçün əhəmiyyətlidir.



Xüsusilə müharibə təcrübəsi olan müəllimlərimizin dərsləri bizə fərqli yanaşma qazandırır. Onların danışdıqları hadisələr, bölüşdükləri təcrübələr öyrəndiyimiz nəzəri biliklərin real həyatda necə tətbiq olunduğunu anlamağımıza kömək edir. Gələcəkdə üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün bu gün öz üzərimizdə çalışmalıyıq".

Kursant Nəzrin Vəlizadova müasir hərbi texnologiyaların öyrənilməsini və peşəkar inkişafı qarşısında duran əsas vəzifələrdən biri hesab edir: "Aviasiya sahəsi yüksək bilik, diqqət və məsuliyyət tələb edir. Bu istiqamətdə təhsil almaq bizə həm nəzəri biliklərimizi artırmaq, həm də praktiki bacarıqlarımızı inkişaf etdirmək imkanı verir. Müəllimlərimizin təcrübəsindən yararlanmaq, müasir silah və texnikanın imkanlarını öyrənmək gələcək fəaliyyətimiz üçün vacibdir. İnanıram ki, qazandığımız biliklərə yiyələnərək ölkəmizin müdafiəsində öz töhfəmizi verəcəyik".

Kursant Murad Səmədzadə isə hərbi təhsil prosesində intizam və mənəvi-psixoloji hazırlığın əhəmiyyətini ön plana çəkir: "Zabit olmaq yalnız hərbi biliklərə yiyələnmək demək deyil. Bu, eyni zamanda, böyük məsuliyyət, möhkəm iradə və düzgün qərar qəbul etmək bacarığı tələb edir. Hərbi təhsil müddətində qarşımıza çıxan çətinliklər bizi daha dözümlü və iradəli olmağa alışdırır. Müəllimlərimizin, xüsusilə döyüş təcrübəsi olan zabitlərin tövsiyələri bizə gələcək xidmətimizə daha ciddi yanaşmağı öyrədir".

Kursant Həbib Məmmədov da gələcəyin zabiti kimi daim öyrənməyin və özünü təkmilləşdirməyin vacibliyini vurğuladı: "Hərbi sahədə biliklər daim yenilənir. Buna görə də yalnız dərslərdə öyrəndiklərimizlə kifayətlənməməli, əlavə araşdırmalar aparmalı, müasir texnologiyalarla maraqlanmalıyıq. Praktiki məşğələlər zamanı qazandığımız bacarıqlar nəzəri biliklərimizi möhkəmləndirir. Əsas məqsədimiz gələcəkdə bizə etibar edilən vəzifələri layiqincə yerinə yetirmək, Vətənimizin hava məkanının etibarlı müdafiəçiləri olmaqdır".

Hərbi təhsilin əsas məqsədi yalnız müəyyən ixtisas üzrə biliklərə malik mütəxəssis yetişdirmək deyil. Əsas hədəf Vətənə sədaqətlə xidmət etməyə, üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirməyə və istənilən şəraitdə düzgün qərar qəbul etməyə qadir zabit formalaşdırmaqdır. Müharibə təcrübəsi olan müəllimlərin bilik və bacarıqlarını gənc nəslə ötürməsi bu prosesin mühüm tərkib hissəsidir. Çünki döyüş meydanında qazanılmış təcrübə, şəhidlərin qəhrəmanlıq yolu və döyüşlərdə yaralananların keçdiyi sınaqlar gələcəyin müdafiəçiləri üçün həm öyrənmə mənbəyi, həm də böyük mənəvi məsuliyyətdir.

Bu gün Hərbi Hava Qüvvələri fakültəsində təhsil alan kursantlar sabah ölkəmizin səmasını qoruyacaq, hava hücumundan müdafiə sistemlərinin idarə olunmasında və aviasiya sahəsində xidmət edəcəklər. Onların auditoriyalarda mənimsədikləri biliklər, poliqonlarda qazandıqları təcrübə və müəllimlərindən öyrəndikləri həyat dərsləri gələcək xidmət yollarının təməlini təşkil edir.

Qeyd etdiyim kimi, güclü ordu sadəcə müasir silahlarla deyil, Vətəninə bağlı, peşəkar, iradəli və mənəvi cəhətdən hazırlıqlı hərbi qulluqçularla formalaşır. Bu hazırlığın əsası isə elə bu gündən qoyulur.

Leytenant
Tamilla HÜSEYNLİ
"Azərbaycan Ordusu"

Zəfərə aparan yol: milli birliyin, güclü ordunun və tarixi Qələbənin təntənəsi


Bəzi tarixi hadisələr var ki, onlar zamanın axarını dəyişməklə yanaşı, bütöv bir xalqın gələcəyə baxışını, milli düşüncəsini və həyat fəlsəfəsini də yeniləyir. Xalqımızın 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfər məhz belə hadisələrdəndir. Bu qələbə 30 ilə yaxın davam edən işğalın ağır nəticələrinə son qoymaqla kifayətlənmədi, ölkəmizin qarşısında yeni inkişaf mərhələsinin, yeni quruculuq dövrünün və yeni tarixi reallıqların əsasını qoydu.

Tarixi Zəfər Azərbaycan xalqına əzəli torpaqlarını qaytardı, milli qürurunu ucaltdı, dövlətimizin gücünü nümayiş etdirdi və gələcək nəsillərə əvəzsiz bir miras bəxş etdi.

Tarixi Zəfərin mahiyyətini dərk etmək üçün, ilk növbədə, onun hansı şəraitdə əldə olunduğunu xatırlamaq lazımdır. 1990-cı ilin əvvəllərində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində torpaqlarımızın bir hissəsi işğal edildi, soydaşlarımız doğma yurdlarından didərgin düşdülər. Dağıdılmış şəhər və kəndlər, talan edilmiş tarixi-mədəni abidələr, yurd həsrəti ilə yaşayan insanlar xalqımızın yaddaşında silinməz izlərlə qaldı. Bu, təkcə ərazi itkisi deyil, həm də milli yaddaşa, mənəvi dəyərlərə vurulan ağır zərbə idi.

Belə bir şəraitdə ölkəmizin qarşısında duran başlıca vəzifə müstəqil dövlətçiliyi möhkəmləndirmək, iqtisadiyyatı şaxələndirmək, müdafiə qabiliyyətini artırmaq və müasir ordu formalaşdırmaq idi. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik strategiyası bu istiqamətdə mühüm təməl rolunu oynadı. Dövlət idarəçiliyinin möhkəmləndirilməsi, nizami ordunun yaradılması ordu quruculuğunun vahid sistem əsasında təşkili Azərbaycanın gələcək inkişafı üçün zəruri zəmin formalaşdırdı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə bu strateji xətt yeni mərhələdə davam etdirildi. Ölkənin iqtisadi potensialının gücləndirilməsi, müdafiə sənayesinin inkişafı, ordunun müasir silah və texnika ilə təchizatı, hərbi təhsil və döyüş hazırlığının təkmilləşdirilməsi ardıcıl olaraq dövlət siyasətinin əsas istiqamətlərinə çevrildi. Azərbaycan Ordusu müasir döyüşün tələblərinə cavab verən, yüksək peşəkarlığa malik, qarşıya qoyulan vəzifələri yerinə yetirməyə qadir bir qüvvə kimi formalaşdı. Bu prosesin nəticəsi 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin mayında Günnüt əməliyyatında, 2020-ci ilin Tovuz döyüşlərində və Vətən müharibəsində özünü büruzə verdi.



2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi Azərbaycanın hərb tarixində yeni səhifə açdı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. 44 gün davam edən müharibə zamanı rəşadətli Azərbaycan Ordusunun göstərdiyi misilsiz qəhrəmanlıq, peşəkarlıq və döyüş əzmi dünya hərb tarixinə düşən nümunələrindən birinə çevrildi. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və digər yaşayış məntəqələrinin azad edilməsi xalqımızın illərlə gözlədiyi tarixi ədalətin bərpası idi. Noyabrın 8-də Şuşanın azad edilməsi isə Zəfərin rəmzinə çevrildi. Noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatla hərbi əməliyyatlar dayandırıldı. Üçtərəfli Bəyanatdan sonra Ağdam, Kəlbəcər, Laçın rayonları danışıqlar yolu ilə Azərbaycana qaytarıldı.

Bu tarixi Zəfər xalqımıza doğma torpaqlarına qayıtmaq ümidini reallığa çevirmək imkanını verdi. İllərlə məcburi köçkün həyatı yaşayan insanlar üçün yurd həsrətinin sona çatması, ata-baba ocaqlarının yenidən canlanması ən böyük mənəvi dəyər oldu. Bir vaxtlar yalnız xatirələrdə yaşayan kənd və şəhərlərin yenidən qurulması, infrastrukturun yenilənməsi qələbənin real nəticələrini nümayiş etdirdi.

Tarixi Zəfərin ölkəmizə qazandırdığı ən mühüm nəticələrdən biri də dövlət suverenliyinin tam bərpası oldu. 2020-ci ildə qazanılan Qələbə və sonrakı mərhələdə həyata keçirilən proseslər bu tarixi məqsədə yol açdı. 2023-cü il sentyabrın 19-20-də Qarabağ iqtisadi rayonunda keçirilən antiterror əməliyyatı nəticəsində Azərbaycanın suverenliyi tam təmin edildi. Beləliklə, ölkəmizin ərazi bütövlüyü və suverenliyi ilə bağlı uzun illər davam edən tarixi mübarizənin mühüm mərhələsi başa çatdı.

Müharibə bir daha sübut etdi ki, güclü ordu yalnız müasir silah və texnikadan ibarət deyil. Onun əsas dayaqları peşəkar hərbi qulluqçu, düzgün idarəetmə, yüksək döyüş hazırlığı, nizam-intizam, vətənpərvərlik və qələbə əzmidir. Hərbi qulluqçularımızın döyüş meydanında göstərdiyi iradə, peşəkarlıq, hərbi birləşmələrin qarşılıqlı fəaliyyəti və xalqın orduya sarsılmaz dəstəyi bu qələbənin əsas amilləri sırasında yer aldı. Şəhidlərimizin qanı ilə yazılan Zəfər salnaməsi isə hər bir azərbaycanlı üçün müqəddəs mənəvi dəyərə çevrildi.

Bu Qələbənin başqa bir mühüm dəyəri milli birliyin və həmrəyliyin güclü olması idi. Vətən müharibəsi günlərində ölkənin hər yerində insanlar eyni məqsəd ətrafında birləşdi. Cəbhədə döyüşən hər bir döyüşçünün arxasında bütöv bir xalq dayanmışdı. Xaricdə yaşayan soydaşlarımızın dəstəyi, arxa cəbhədə göstərilən mənəvi dəstək, şəhid ailələrinə və müharibədə sağlamlıqlarını itirənlərə diqqət ümummilli həmrəyliyin parlaq nümunəsi oldu. Bu birlik yalnız müharibə dövrünün hadisəsi deyil, dövlətimizin gələcək inkişafı üçün də mühüm mənəvi sərvətdir.

Tarixi Zəfər informasiya məkanında da yeni həqiqətləri üzə çıxardı. Azərbaycan jurnalistləri, media nümayəndələri və informasiya müharibəsinin iştirakçıları müharibə zamanı ölkəmizin mövqeyini dünyaya çatdırmaq, həqiqətləri beynəlxalq ictimaiyyətə təqdim etmək üçün böyük məsuliyyət daşıdılar. Cəbhədən gələn operativ məlumatlar, rəsmi açıqlamalar və videomateriallar informasiya müharibəsinin əhəmiyyətini bir daha göstərdi. Bu prosesdə qələm də, söz də Vətənə xidmət edirdi.

Qələbədən sonra qarşıda tamamilə yeni vəzifələr yarandı. İşğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi, infrastrukturun bərpası, yaşayış məntəqələrinin yenidən salınması genişmiqyaslı quruculuq prosesinə çevrildi. Bu proses illərlə yarımçıq qalmış arzuların reallaşması, insanların uzun illər sönmüş ocaqlarının yenidən alovlanması, tarixi yurd yerlərində həyatın öz axarı ilə davam etməsinə şərait yaratdı. İndi bu torpaqlarda yeni evlərdə məskunlaşan ailələr, məktəbə gedən uşaqlar, quruculuq işlərində çalışan insanlar Zəfərin sülh və inkişaf mərhələsinin iştirakçılarıdır.

Tarixi Zəfər Azərbaycanın gələcək nəsillərinə də mühüm mesaj verdi: Vətən sevgisi sözlə ifadə olunan hiss deyil, bu, məsuliyyət, fədakarlıq, birlik və əməl tələb edən ən müqəddəs dəyərdir. Bu gün gənclərin üzərinə düşən vəzifə müstəqil dövlətimizi, xalqımızın birliyini və ordumuzun gücünü qorumaq və şəhidlərimizin əziz xatirəsini həmişə uca tutmaqdır. Zəfər tarixini öyrənmək, qəhrəmanlarımızı tanımaq və bu tarixi gələcək nəsillərə çatdırmaq mənəvi borcumuzdur.

Bu gün Azərbaycan xəritəsinə baxarkən həm azad edilmiş torpaqları, həm də böyük mübarizənin nəticəsində formalaşmış yeni reallıqları görürük. Bu Zəfər bizə ərazi bütövlüyümüzün bərpasına aparan yolu, dövlət suverenliyinin tam təmin olunmasını, doğma yurdlarda yenidən həyat qurmaq imkanını, milli qürur və özünəinamı qazandırdı. Ən əsası isə sübut etdi ki, dövlətin dəmir iradəsi, xalqın birliyi və ordunun qüdrəti vahid məqsəd ətrafında birləşəndə hər uğura nail olmaq olur.

Qələbədən doğulan Azərbaycan məhz bu dəyərlər üzərində inkişaf edir, yüksəlir. Onun təməlində xalqımızın birliyi, dövlətimizin qətiyyəti, şəhidlərimizin müqəddəs qanı, döyüşlərdə sağlamlıqlarını itirənlərin cəsurluğu, hərbi qulluqçularımızın igidliyi və gələcəyə yönəlmiş quruculuq əzmi dayanır. Tarixi Zəfər keçmişin qürurverici səhifəsi, bu günün məsuliyyəti və sabahın inkişaf yoludur. Zəfəri qazanmaq böyük hünərdir, onu qorumaq, möhkəmləndirmək və gələcək nəsillərə daha güclü Azərbaycan miras qoymaq da ən azı o qədər böyük vəzifədir.

Azərbaycanımızı sevək və qoruyaq! Yaşasın Azərbaycan!

Kifayət ƏLİYEVA
"Azərbaycan Ordusu"

İctimai-siyasi hazırlıq taktiki hazırlıq qədər önəmlidir

(Əvvəli 1-ci səhifədə)

O zaman xalqı düşdüyü ağır vəziyyətdən xilas edə biləcək yeganə şəxsiyyət Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev idi. Xalqın təkidi ilə yenidən hakimiyyətə gələn Ulu Öndər qısa zamanda ölkə daxilində sabitlik yaratdı. Ermənistanla davam edən müharibəni dayandırdı və təmas xəttində uzun sürən atəşkəsə nail oldu. Ulu Öndər Heydər Əliyevin atəşkəsin əldə edilməsində məqsədi düşmənin işğal etdiyi əraziləri sülh yolu ilə azad etməsi olmuşdu.

Ermənistan buna razı olmasa, yenidən müharibənin baş verməsi qaçılmaz olacaqdı. Bunun üçün dövlət başçısı, ilk növbədə, ordu quruculuğuna diqqət ayırdı. Ölkə iqtisadiyyatını dirçəltmək üçün mühüm addımlar atdı. Xarici investorları ölkəyə cəlb etdi. Neft müqavilələri imzaladı. Ulu Öndər yaxşı bilirdi ki, Ermənistanın işğal etdiyi torpaqları geri qaytarmağın bir yolu da ölkə iqtisadiyyatını dirçəltməkdən keçir.

İctimai-siyasi hazırlıq dərslərində zabit, gizir, çavuş, əsgər qruplarında yaxın keçmişlə bağlı mövzular mühüm yer tutur. Qrup rəhbərləri Birinci Qarabağ müharibəsinin baş verməsinin və müvəqqəti uğursuzluqların səbəblərini dəqiqliklə araşdırırlar. Əsgər qrupunun rəhbəri leytenant Fəhmin Beybutovla məşğələ yerindəyik. Zabit 2010-cu ildən ordu sıralarında xidmət edir. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu kimi xidmətə başlasa da, 2016-cı ildə "Gizir hazırlığı kursu"nu, 2022-ci ildə isə "Zabit hazırlığı kursu"nu bitirib. Fəhmin həm Aprel döyüşlərinin, həm də İkinci Qarabağ müharibəsinin iştirakçısıdır. Zabit Fəhmin Beybutov deyir ki, ictimai-siyasi hazırlıq dərsi onun üçün maraqlı və diqqətçəkəndir. Ona görə də əsgərlərə müxtəlif mövzularda dərs keçməkdə heç bir çətinlik çəkmir. Qrup rəhbərinin sözlərinə görə hər mövzu üçün 2-3 saat vaxt verilir. Əsasən "söhbət" və "şərh" üzərində qurulan dərs saatlarında mövzunu əsgərlərə dərindən aşılamağa çalışır. Dərsin mövzusu Zəfər Gününə həsr olunub. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev orduya əks-hücum əmri verdi. Fəhmin Füzuli, Qubadlı və Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib. Qrup rəhbəri əsgərlərə keçdiyi döyüş yolundan ordumuzun bölmələrinin uğurlu fəaliyyətlərindən nümunələr gətirir, ordumuzun Zəfər qazanmasının başlıca səbəblərini onlara izah edirlər.



Erməni işğalçılarına qarşı aparılan istər Birinci Qarabağ müharibəsində, istərsə də İkinci Qarabağ müharibəsində minlərlə soydaşımız döyüşüb. Onlar döyüş meydanında misilsiz qəhrəmanlıqlar göstəriblər. Ölkəmizdə Qarabağ müharibəsinin ağrı-acısını çox ailələr çəkiblər. Qrup rəhbəri deyir ki, ictimai-siyasi hazırlıq qrupunda bir neçə əsgər var ki, onların ailələrindən və yaxın qohumlarından müharibədə şəhid olan, yaralanan və döyüşlərdə iştirak edənlər var. Əsgərlərdən Əli Abbaszadənin əmisi və bibisi oğlu, Ramin Məmmədovun əmisi oğlu, Ülvi Tağıyevin əmisi oğlu İkinci Qarabağ müharibəsinin od-alovundan keçiblər. Masallı rayonundan olan Qəhrəman Həsənovun dayısı oğlu Ramazan Vəlizadə Şuşanın azad edilməsi zamanı gedən döyüşlərdə şəhid olub.

İsmayıllı rayonunun Hacıhətəmli kəndindən olan ictimai-siyasi hazırlıq qrupunun rəhbəri leytenant Fəhmin Beybutov Qarabağ müharibəsindəki fəaliyyətinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

Gəncə şəhərində doğulub boya-başa çatan əsgər Rəşad Haqverdiyev deyir ki, onun xidmət etdiyi bölmədə döyüş yolu keçmiş zabitlər var. Onlardan biri də leytenant Fəhmin Beybutovdur. Zəngin döyüş yolu olan zabitlərin tabeliyində xidmət etmək onun və digər əsgər yoldaşları üçün qürurvericidir.

İctimai-siyasi hazırlıq dərsi əsgərlərə döyüşlərdən və döyüşçülərdən nümunələr gətirir, onların vətənpərvər ruhda tərbiyə olunmasında mühüm rol oynayırlar.

Bəxtiyar ƏLİYEV
"Azərbaycan Ordusu"

Disput

Biz Zəfərin əsgərləriyik





(Əvvəli 1-ci səhifədə)

Söhbət əsnasında müsahibimin əmisi oğlu xüsusi təyinatlılar mənsubu gizir Röyal Mədətovun İkinci Qarabağ müharibəsində şəhid olduğunu da öyrəndim. "Şəhidlik ən uca məqam, ən ali ünvandır. Bu ünvanın əbədi sakini olmağı hər bir Vətən övladı arzulayır, lakin hər kəs o mərtəbəyə ucala bilmir. Heç kəs şəhidlərimizi unutmamalı, unutdurmamalıdır. Çünki şəhid unudulanda ölür. Gənclərimiz onların vətənpərvərlik və qəhrəmanlıq ənənələrini layiqincə yaşatmalı, bunun üçün də hər bir vətəndaş öz əlindən gələni əsirgəməməlidir. Valideynlər, müəllimlər, komandirlər, bir sözlə, cəmiyyətin hər bir üzvü fəal çalışmalıdır. Əziz şəhidlərimiz, siz bu gün aramızda olmasanız da, qəlbimizdə daim yaşayırsınız. Sizin sayənizdə bu gün torpaqlarımız azaddır, bayrağımız qürurla dalğalanır. Siz Vətənin azadlığı üçün öz həyatınızı qurban verdiniz, bizə isə böyük bir Zəfər miras qoydunuz. Hər birinizin adı bizim üçün qəhrəmanlıq rəmzidir. Biz sizin əmanətiniz olan bu Vətəni qoruyacaq, Zəfər tariximizi gələcək nəsillərə çatdıracağıq".

Əsgər Sadiq Ağazadə xidmətə başladıqdan sonra Vətənin müdafiəsinin nə qədər böyük məsuliyyət tələb etdiyini daha dərindən anlayıb. O, qalib ordunun əsgəri olmağın hər bir hərbi qulluqçuda qürur hissi yaratdığını və bu adın etimadını doğrultmaq üçün çalışdıqlarını vurğuladı. "Hərbi xidmətə gəldikdən sonra Vətəni sevməyin, onun müdafiəsinin nə qədər böyük məsuliyyət tələb etdiyini anladıq. Biz qalib ordunun əsgərləriyik. Bu ad hər birimizdə qürur hissi yaradır. Ona görə də çalışırıq ki, xidmətimizlə bu etimadı doğruldaq".

Vətən müdafiəçimizin bu fikirlərindən sonra söhbət hərbi xidmətin insanın xarakterinə və dünyagörüşünə təsirinə yönəldi. Qeyd olundu ki, əsgər hərbi xidmət müddətində yalnız müəyyən bilik və bacarıqlara yiyələnmir, eyni zamanda, kollektivdə yaşamağı, çətinlikləri dəf etməyi, verilən tapşırığa məsuliyyətlə yanaşmağı öyrənir. Bu keyfiyyətlər onun həm hərbi qulluqçu, həm də cəmiyyətin məsuliyyətli üzvü kimi formalaşmasında mühüm rol oynayır.

Əsgər Əlipaşa Rüstəmov qalib orduda xidmət etməyin gələcək nəsillərə örnək olduğunu diqqətə çatdırdı. O bildirdi ki, Azərbaycan əsgəri özündən əvvəlki nəsillərin döyüş və qəhrəmanlıq ənənələrini qorumaqla yanaşı, gələcək hərbi qulluqçular üçün də nümunə olmalıdır.

Gizir Elvin Mədətov qazanılmış Zəfərin şəxsi heyətin mənəvi-psixoloji hazırlığına verdiyi gücdən danışdı. O bildirdi ki, Qələbə hər bir hərbi qulluqçuya öz ordusunun imkanlarını, xalqının birliyini və dövlətinin gücünü daha dərindən hiss etdirir. "Lakin bu qürur xidmətə arxayınlıq gətirməməli, əksinə, daha yüksək hazırlığa və məsuliyyətə sövq etməlidir. Çünki ordunun qazandığı uğurların qorunması daim peşəkarlıq, hərbi nizam-intizam və yüksək döyüş hazırlığı tələb edir".

Əsgər Mahir Babayevin fikrincə, hərbi qulluqçu üzərinə düşən vəzifənin əhəmiyyətini dərk etdikdə xidmətə daha ciddi yanaşır, kiçik görünən tapşırıqların belə ümumi işdə mühüm yer tutduğunu anlayır. Mahir onu da qeyd etdi ki, nümunəvi əsgər olmaq üçün yalnız əmrləri yerinə yetirmək deyil, hər zaman etibarlı, diqqətli və məsuliyyətli davranmaq vacibdir.

Disputun gedişində əsgər Nihat Nəzərli də mövzu ilə bağlı fikirlərini bölüşdü: "Azərbaycan əsgərinin arxasında ona güvənən, doğma yurdlarında əmin-amanlıq şəraitində yaşamaq istəyən xalq dayanır. Bu inamı doğrultmaq üçün hər bir hərbi qulluqçu üzərinə düşən işi vicdanla yerinə yetirməli, bilik və bacarıqlarını daim artırmalıdır".

Beləliklə, disputda səslənən fikirlərdə bir həqiqət aydın şəkildə ifadə olundu ki, qalib orduda xidmət etmək qüruru yalnız keçmişin qəhrəmanlıq salnaməsi ilə deyil, bu gün göstərilən xidmətin keyfiyyəti ilə də ölçülür. Vətənə sədaqət, Hərbi Anda bağlılıq, intizam, peşəkarlıq və daim hazır olmaq Azərbaycan əsgərinin əsas keyfiyyətləridir. Hər bir hərbi qulluqçu öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməklə ordumuzun döyüş qüdrətinin qorunmasına və daha da möhkəmlənməsinə töhfə verir.

2020-ci ilin payızında qazanılan tarixi Zəfər Azərbaycan əsgərinin qəhrəmanlığını, xalqımızın birliyini və dövlətimizin gücünü təcəssüm etdirir. Həmin Qələbənin məsuliyyətini bu gün hərbi xidmətini davam etdirən hər bir əsgər daşıyır. Çünki Zəfər tarixini yazan qəhrəmanların davamçıları olmaqla yanaşı, onu qorumaq da hər birimizin borcudur. Bu gün yaşadığımız Zəfər sevinci, azad torpaqlarımızda dalğalanan üçrəngli bayrağımız şəhidlərimizin qanı, döyüşlərdə yaralananların fədakarlığı və igid əsgərlərimizin şücaəti sayəsində mümkün olub. Hər qarışında bir qəhrəmanlıq dastanı yazılan Vətən torpağı bizə müqəddəsdir. Bu gün Zəfərdən danışarkən, ilk növbədə, bu Zəfəri bizə yaşadan qəhrəmanlarımızı ehtiramla anırıq. İndi isə Zəfərin sevincini yaşayan, şəhidlərimizin əmanətini qoruyan Azərbaycan əsgərlərinin dilindən Vətənə, Zəfərə və qəhrəman şəhidlərimizə ünvanlanan sözləri dinləyək.

Əsgər Hüseyn Əliyev bu gün qalib ordunun əsgəri olmağının qürurundan danışdı: "Mən bu gün qalib Azərbaycanın əsgəri olduğum üçün qürur duyuram. Zəfər bizim üçün sadəcə qələbə deyil, illərlə çəkilən həsrətin, mübarizənin və xalqımızın birliyinin təntənəsidir. Bu torpaqların hər qarışında şəhidlərimizin qanı, igidlərimizin izi var. Biz bu gün azad torpaqlarda qürurla dayanırıqsa, bunu canından keçən qəhrəmanlarımıza borcluyuq. Onlar öz həyatlarını fəda edərək bizə Zəfər sevincini yaşatdılar. Söz verirəm ki, onların əziz xatirəsini daim uca tutacaq, Vətənimizi göz bəbəyim kimi qoruyacağam".

Əsgər Elnur Əhmədli Vətən sevgisinin təkzibolunmaz nümunəsi olaraq şəhidlərimizi əsas gətirdi. "Zəfər günü bizim üçün qürur, sevinc və sonsuz minnətdarlıq günüdür. Bu qələbənin arxasında neçə-neçə igidin qanı, neçə-neçə ananın göz yaşı dayanır. Şəhidlərimiz Vətən sevgisinin nə demək olduğunu bütün dünyaya göstərdilər. Onlar ölümün gözünə dik baxaraq torpaqlarımızın azadlığı uğrunda mübarizə apardılar. Bu gün onların arzuları gerçəkləşib, üçrəngli bayrağımız azad torpaqlarımızda dalğalanır. Bizim borcumuz bu Zəfəri qorumaq və şəhidlərimizin əmanətinə sahib çıxmaqdır".

Vətən müdafiəçisi əsgər Tural İsmayılov Vətən və şəhidlik məfhumlarının vəhdətindən yaranan azadlıqdan söhbət açdı: "Mənim üçün Vətən sadəcə yaşadığım torpaq deyil, həm də uğrunda canımı verməyə hazır olduğum müqəddəs bir məkandır. Şəhidlərimiz bu müqəddəs sevginin ən böyük nümunəsinə çevrildilər. Onlar öz canları bahasına bizə azadlıq, qürur və Zəfər bəxş etdilər. Hər dəfə bayrağımızın dalğalandığını görəndə gözlərim önündə qəhrəman şəhidlərimizin siması canlanır. Kaş ki, bu gün onlar da bizimlə birlikdə Zəfər sevincini yaşaya bilərdilər. Onların adı tariximizə qızıl hərflərlə yazılıb və heç zaman unudulmayacaq".

"Bu gün biz qalib xalqın qalib əsgərləriyik!" - deyən əsgər Ülvi Mahmudov söhbətinə davam etdi. - Bu qələbə asan qazanılmadı, hər qarış torpaq uğrunda igid oğullarımız böyük fədakarlıqlar göstərdilər. Şəhidlərimiz Vətənin azadlığı naminə ən qiymətli varlıqlarından - canlarından keçdilər. Onların yarımçıq qalan arzuları bu gün bizim qürurumuzda, azad torpaqlarımızda yaşayır. Mən hər zaman onların qəhrəmanlığından güc alıram. Nə qədər ki, Azərbaycan var, şəhidlərimizin adı da yaşayacaq!

Növbəti müsahibim əsgər Cahangir Dadaşov Vətənə layiq olmağın ən ali məqsəd olduğunu qeyd etdi: "Mən bu formanı geyinərkən yalnız bir məqsəd düşünürəm: Vətənə layiq biri olmaq! Çünki bu torpaqlar bizə şəhidlərimizin müqəddəs qanı bahasına əmanət edilib. Onlar ailələrini, arzularını, gələcəklərini geridə qoyaraq Vətənin çağırışına səs verdilər. Bu gün azad Qarabağda eşidilən hər gülüşdə, dalğalanan hər bayraqda onların ruhu yaşayır. Şəhidlərimizin bizə yaşatdığı Zəfər heç zaman unudulmayacaq. Mən fəxr edirəm ki, belə qəhrəman oğulların davamçısıyam!"

Vətən müdafiəçisi oğullarımızla olan görüşümüz Zəfər və qürur ovqatı ilə başa çatdı. Onların hər biri bu günün əsgəri, sabahın isə tamhüquqlu vətəndaşıdır. Əsgərlərin sonda birlikdə səsləndirdiyi şüarlar ruhumuza sığal çəkdi: "Biz Zəfərin əsgərləriyik! Biz şəhidlərimizin canı və qanı ilə bizlərə qoyduğu müqəddəs əmanətə sahib çıxan gənclərik! Qəhrəmanlarımızı unutmadıq, unutmayacağıq! Qarabağ Azərbaycandır!"

Kapitan
Fuad CƏFƏROV,
baş leytenant
Elçin İMANOV
"Azərbaycan Ordusu"

Medallı igidlərimiz

"Əlbəttə, hərbçi!"

Vətən qarşısında övladlıq borcunu ləyaqətlə yerinə yetirənlər təkcə əsgərlər olmurlar, çavuşlar, gizirlər, zabitlər də olur. Gizir Məhəmmədamin Qasımov məhz nümunəvi xidməti ilə sayılıb-seçilənlərdəndir. O, hərbçi peşəsinə yiyələnməzdən qabaq bu peşənin çətinliklərini və özəlliklərini göz önünə almışdı. Çətinlikləri ondan ibarət idi ki, tabeliyində olan şəxsi heyətin sağlamlığına, onların əşya-əmlak, döyüş təminatına bir başa cavabdeh olacaq. Müharibə vaxtı isə məsuliyyət daha da artacaq. Bir çox hallarda təlim və atış meydanlarında əsgərlərlə bir yerdə olacaq. Döyüş vaxtı yaralanmaq və həlak olmaq ehtimalını da nəzərdən keçirmişdi. Məhəmmədamini bu peşəyə bağlayan, həm də onun şəxsi iradəsindən üstün gələn Vətən sevgisi idi. Vətən torpaqlarının düşmənin işğalı altında qalması onu da ruhən rahat qoymurdu. Həyatda çox peşələr vardı. O, yalnız "hərbçi" peşəsini seçdi. Bu peşəni şərəfli, müqəddəs və daim başını uca edən bir peşə bildi. Peşə seçimində yanlışlığa yol vermədiyini bilirdi...

Müddətli həqiqi hərbi xidmətini başa vurandan sonra doğulub boya-başa çatdığı Ağdaş rayonunun Nemətabad kəndinə qayıtdı. Məhəmmədamin evdə çox qala bilməzdi. Mütləq vaxt itirmədən arzusunda olduğu peşənin dalınca getməyi düşünmüşdü. O, 2018-ci ildə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Gizir hazırlığı kursu"na üz tutdu. Bütün tibbi müayinələrdən, imtahandan uğurla keçib kursant adını qazandı. Həmin ilin oktyabrında kursu müvəffəqiyyətlə başa vurdu. "Gizir" hərbi rütbəsində cəbhə bölgəsində hərbi xidmətə başladı. Məqsədi, məramı nümunəvi xidmət etmək idi.



Gizir M.Qasımov xidmətə başladığı hərbi hissədə qısa müddətdə biliyi, bacarığı ilə komandirlərin və əsgərlərin rəğbətini qazandı. İşində daim məsuliyyətli oldu. 2020-ci il sentyabrın 27-də Ali Baş Komandan Azərbaycan Ordusuna əks-hücum əmri verəndə onun da xidmət etdiyi hərbi hissə ilk döyüşə gedən hərbi hissələrdən idi. Məhəmmədamin həmin dövrü belə xatırlayır: "Cəbhənin müxtəlif istiqamətlərində düşmən tez-tez atəşkəsi pozurdu. Daha çox Tovuz istiqamətindən təmas xəttini keçməyə düşmən cəhd etmişdi. Postda dayanan əsgərlərin sayıqlığı nəticəsində düşmən istəyinə nail ola bilmədi. Daha sonra İkinci Qarabağ müharibəsinin başlandığı barədə xəbər tutduq. Bizim hərbi hissə Füzuli istiqamətində döyüşə girdi. Cəbrayılın, Füzulinin, Xocavəndin və Zəngilanın azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etdim. Hər şəhər, hər qəsəbə, hər kənd azad edildikcə qəlbimdə bir rahatlıq hiss edirdim. 30 ilə yaxın idi həmin yerlər düşmənin işğalı altında idi. Evlər, məktəblər, məscidlər viran qoyulmuşdu. Elə kəndlər vardı tamamilə məhv edilmişdi. Bu acı mənzərəni gördükcə işğalçıya qəzəbim daha da artırdı. Ordumuz 44 gündə düşməni məhv edərək qalib gəldi. Tarixi torpaqlarımızı qaytardıq. Bu gün də işğaldan azad edilmiş ərazilərdə hərbi xidmətimi davam etdirirəm. Bu məni ikiqat sevindirir".

Gizir M.Qasımov döyüşlərdəki xidmətinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Doğma Vətənin ərazi bütövlüyünün təmin olunmasında Məhəmmədaminin də payı var. O, bundan qürur hissi duyur.

Məhəmmədamin hərbçi peşəsinin nə qədər şərəfli olduğunu on ilə yaxın xidmət etdiyi dövrdə bir daha dərk edib. Yenidən sənə deyilsə ki, "Hansı peşəni seçərsən?" sualına o fikirləşmədən: - Əlbəttə, hərbçi!, - dedi.

Biz də gizir M.Qasımovdan gələcək xidmətində uğurlar diləyi ilə ayrıldıq.

Bəxtiyar ƏLİYEV
"Azərbaycan Ordusu"

“Səni necə tanıdım” kitabının təqdimatı keçirilib



Naxçıvan şəhərində “Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin təşkilatçılığı, Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin tərəfdaşlığı ilə “Səni necə tanıdım” kitabının təqdimat mərasimi keçirilib.









Tədbirdə şəhid ailələri, müharibə iştirakçıları, Ali Məclisin deputatları, dövlət və ictimaiyyətin nümayəndələri, ziyalılar, müəllimlər, tələbələr və kitabın müəllifləri iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra kitabın ərsəyə gəlmə tarixçəsini əks etdirən videoçarx nümayiş olunub.

Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov çıxışında şəhidlərimizin həyat və qəhrəmanlıq yolunun ədəbi nümunələr vasitəsilə gələcək nəsillərə çatdırılmasının əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, şəhid leytenant Emin Sadiqovun anası Gülşad Rüstəmova övladlarının xatirəsinin yaşadılmasının şəhid ailələri üçün böyük mənəvi dəyər daşıdığını vurğulayıb.

Türkiyənin Naxçıvandakı baş konsulunun müavini Ayşe Şengül Yıldırım çıxışında Azərbaycan və Türkiyə xalqları arasında tarixi qardaşlıq münasibətlərindən, ortaq mənəvi dəyərlərdən və şəhidlərimizin xatirəsinə göstərilən ehtiramdan bəhs edib. O, qəhrəmanlarımızın həyat yolunu əks etdirən belə nəşrlərin iki qardaş xalqın ortaq yaddaşının qorunmasına və gənc nəslin vətənpərvərlik ruhunda yetişməsinə mühüm töhfə verdiyini qeyd edərək Azərbaycan-Türkiyə qardaşlığının daim möhkəmlənməsinin vacibliyini diqqətə çatdırıb.

Naxçıvan Yazıçılar Birliyinin sədri Asim Yadigar şəhidlərimizin həyat və mübarizə yolunun ədəbiyyatda əbədiləşdirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

Şəhid leytenant Yaqub Nəcəfovun atası, müəllim Məhəmməd Nəcəfov övladının və onun silahdaşlarının qəhrəmanlığından söz açaraq Vətənə xidmətin hər bir azərbaycanlı üçün ən böyük şərəf olduğunu bildirib.

“Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin təsisçisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Üzeyir Məmmədov kitabın ərsəyə gəlməsini yüksək qiymətləndirib. O, nəşrin şəhidlərimizin adlarının, xatirələrinin və qəhrəmanlıq tarixlərinin gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Kitabın müəllifləri Məftunə Nur, Rəqsanə Tapdıqlı və Kirman Rüstəmli çıxışlarında şəhidlər haqqında yazmağın mənəvi məsuliyyətindən, onların keçdiyi şərəfli ömür yolunun ədəbi nümunələrlə yaşadılmasının vacibliyindən danışıblar.

Tədbirin sonunda “Şəhidə məktub” adlı videoçarx nümayiş etdirilib, vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib. Kitablar şəhid ailələrinə və dövlət təşkilatlarının nümayəndələrinə təqdim olunub, xatirə fotosu çəkdirilib.

Qeyd edək ki, “Səni necə tanıdım” kitabında 11-i Türkiyə Respublikasından olmaqla, ümumilikdə 60 müəllifin 60 şəhid haqqında qələmə aldığı hekayələr yer alıb. Layihənin rəhbərləri İlhamə Müslümova və Namiq Müslümovdur.

Bəxtiyar ƏLİYEV
“Naxçıvan Şəhid Ailələri”
İctimai Birliyinin mətbuat katibi

Nümunəvi xidmət

Əlaqənin kəsilməz təminatçısı

Orduda xidmətin uğurla təşkil olunmasında hər bir hərbi qulluqçunun öz vəzifəsi və məsuliyyəti var. Müxtəlif ixtisas sahiblərinin birgə fəaliyyəti hərbi kollektivin qarşıya qoyulan tapşırıqları yerinə yetirməsinə imkan yaradır. Bu sahələr arasında rabitə xidmətinin də xüsusi rolu var. Çünki idarəetmənin, məlumat mübadiləsinin və bölmələr arasında əlaqənin təmin olunmasında rabitənin rolu böyükdür.

Rabitə ordunun idarəetmə sistemində əsas yer tutur. Bölmələr arasında əlaqənin düzgün qurulması, verilən tapşırıqların vaxtında çatdırılması və məlumatların operativ şəkildə ötürülməsinə birbaşa təsir göstərir. Buna görə də rabitə xidmətinin təşkili daim diqqət və məsuliyyət tələb edir. Bu sahədə xidmət edən hərbi qulluqçuların hazırlığı, bilik və bacarıqları ümumi xidmətin keyfiyyətində mühüm rol oynayır.

Rabitəçi hərbi qulluqçu öz üzərinə düşən vəzifələri dəqiqliklə və məsuliyyətlə yerinə yetirməlidir. Onun fəaliyyətində diqqətlilik, operativlik, texniki biliklər və intizam mühüm yer tutur. Rabitə vasitələrinin işlək vəziyyətdə saxlanılması, məlumatların vaxtında ötürülməsi və əlaqənin fasiləsiz təmin edilməsi bu xidmət sahəsinin əsas tələblərindəndir.

Bu ixtisas sahibindən yalnız texniki vasitələrlə işləmək bacarığı deyil, həm də soyuqqanlılıq və çevik düşünmək qabiliyyəti tələb olunur. Burada xidmət zamanı müxtəlif vəziyyətlərlə qarşılaşmaq mümkündür. Belə hallarda rabitəçi yaranmış vəziyyəti düzgün qiymətləndirməli, verilən tapşırıqları diqqətlə yerinə yetirməli və mövcud vasitələrdən səmərəli istifadə etməlidir. Çünki onun fəaliyyətində hər bir detalın, hər bir məlumatın öz əhəmiyyəti var.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Pünhan Nəsirov da rabitə sahəsində xidmət edən hərbi qulluqçularımızdan biridir. Əslən Beyləqan rayonundan olan Pünhan Nəsirov artıq iki ildir ki, hərbi xidmətdədir. Bu müddət ərzində o, hərbi kollektivin bir üzvü kimi üzərinə düşən vəzifələrin məsuliyyətini daşıyaraq xidmətini davam etdirir.

İnsan həyatında hərbi xidmətin özünəməxsus yeri var. Bu dövr ərzində qazanılan təcrübə, öyrənilən biliklər və formalaşan vərdişlər hərbi qulluqçunun şəxsi inkişafına da öz təsirini göstərir. Xidmət zamanı intizamlı olmaq, vaxtı düzgün dəyərləndirmək, kollektivin maraqlarını nəzərə almaq və verilən tapşırıqlara məsuliyyətlə yanaşmaq əsas keyfiyyətlərdəndir. Xüsusilə rabitə kimi diqqət tələb edən sahədə bu xüsusiyyətlər daha böyük əhəmiyyət daşıyır.



Hərbi xidmətdə hər bir ixtisasın özünəməxsus xüsusiyyətləri var. Rabitəçi olmaq isə daim diqqətli və hazırlıqlı olmağı tələb edir. Çünki rabitədə yaranan hər hansı bir gecikmə və ya nasazlıq məlumat mübadiləsinə təsir göstərə bilər. Buna görə də rabitəçi hərbi qulluqçular texniki vasitələrlə işləməyi yaxşı bilməli, verilən tapşırıqlara ciddi yanaşmalı və peşə hazırlıqlarını daim təkmilləşdirməlidirlər. Pünhan Nəsirov da gecə-gündüz öz üzərində çalışaraq peşəsinin tələblərinə uyğun bilik və bacarıqlarını inkişaf etdirir. Onun fikirləri bizim üçün maraqlı olduğundan rabitəçi peşəsinin gizli və qaranlıq olan tərəflərini bir də onun dilindən dinlədik.

“Rabitə vasitələrinin sazlığına nəzarət etmək bu sahənin vacib tələblərindəndir”, - deyə Pünhan Nəsirov sözə başladı. O bildirdi ki, hərbi qulluqçu istifadə etdiyi avadanlığın imkanlarını, işləmə qaydalarını və təhlükəsizlik tələblərini yaxşı bilməlidir. “Texniki vasitələrin vaxtında yoxlanılması, onların düzgün istismarı və yaranan nasazlıqların müəyyənləşdirilməsi xidmətin etibarlılığını artırır. Bu işdə diqqətsizliyə yol verməmək, hər bir tapşırığı müəyyən edilmiş qaydada yerinə yetirmək olduqca vacib nüansdır.

Müasir dövrdə rabitə vasitələri ordunun idarə olunmasında mühüm yer tutur. Texnologiyaların inkişafı bu sahənin imkanlarını genişləndirsə də, insan amili öz əhəmiyyətini qoruyub saxlayır. Texniki vasitələrdən düzgün istifadə etmək, yaranan problemləri vaxtında müəyyənləşdirmək və operativ qərar vermək rabitəçi hərbi qulluqçunun peşəkarlığından asılıdır”, - deyə fikrini tamamladı.

Pünhan Nəsirovun hərbi xidmət təcrübəsi də onun həyatında mühüm mərhələdir. Hərbi mühitdə qazanılan təcrübə insana yalnız peşə vərdişləri deyil, eyni zamanda, məsuliyyət, dəqiqlik və kollektivlə işləmək bacarığı aşılayır. Xidmət müddətində əldə olunan bilik və təcrübə isə gələcək fəaliyyət üçün möhkəm zəmin yaradır.

Orduda xidmət edən hər bir hərbi qulluqçu ümumi məqsəd naminə çalışır. Kimi döyüş hazırlığı ilə, kimi texniki təminatla, kimi də rabitə və digər xidmət sahələri ilə məşğul olur. Bu fəaliyyət istiqamətlərinin hər biri digər sahələrlə qarşılıqlı əlaqədə bir-birilərini tamamlayır. Məhz bu birlik və qarşılıqlı fəaliyyət ordunun gücünü, nizamını və hazırlıq səviyyəsini müəyyən edən amillərdəndir.

Orduda hər bir sahənin öz yeri və əhəmiyyəti var. Döyüş hazırlığından tutmuş texniki təminata, rabitədən digər xidmət istiqamətlərinə qədər bütün sahələr vahid məqsədə - ordumuzun döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılmasına xidmət edir. Bu məqsədin həyata keçirilməsində rabitəçi hərbi qulluqçuların da üzərinə mühüm vəzifələr düşür.

Pünhan Nəsirov kimi xidmətini uğurla davam etdirən hərbi qulluqçularımızın fəaliyyəti bir daha göstərir ki, orduda uğur hər bir şəxsin öz vəzifəsinə məsuliyyətlə yanaşmasından başlayır. Vətənə xidmət isə tutduğu vəzifədən asılı olmayaraq hər bir hərbi qulluqçudan diqqət, intizam və sədaqət tələb edir.

Hüsniyyə NƏSİROVA
“Azərbaycan Ordusu”

Məişət

Əsgər süfrəsinin arxasında böyük zəhmət dayanır

Hərbi hissədə gündəlik xidmətin özünəməxsus ritmi var. Səhər erkəndən başlayan bu ritm gün ərzində müxtəlif istiqamətlər üzrə davam edir. Təlim meydanında məşğul olan, döyüş növbətçiliyinə çıxan, qarşıya qoyulan tapşırıqları yerinə yetirən hər bir hərbi qulluqçunun fəaliyyətində mühüm amillərdən biri də vaxtında və keyfiyyətli qidalanmaqdır. Çünki şəxsi heyətin sağlamlığının qorunması, fiziki gücünün və dözümlülüyünün təmin edilməsi düzgün qidalanmadan birbaşa asılıdır.

Əsgər süfrəsinə gələn hər yeməyin arxasında böyük zəhmət, məsuliyyət və diqqət dayanır. Məhsulların hazırlanmasından yeməyin bişirilməsinə, paylanmasından yeməkxanada təmizliyin qorunmasına qədər bütün proseslər vahid təminat sisteminin mühüm tərkib hissəsidir. Bu işin görünməyən tərəflərində çalışan insanlar hər gün öz vəzifələrini məsuliyyətlə yerinə yetirərək şəxsi heyətin qida təminatına töhfə verirlər.

"N" hərbi hissəsinin yeməkxanasında bizi səhərin ilk saatlarından başlayan iş prosesi, mətbəxdəki hərəkətlilik və öz vəzifəsini diqqətlə yerinə yetirən kollektiv qarşıladı. Yeməkxananın gündəlik fəaliyyəti ilə tanış olarkən aydın oldu ki, əsgər süfrəsinin hazırlanması sadəcə yemək bişirməkdən ibarət deyil. Bu iş vaxtın düzgün bölüşdürülməsini, kollektiv fəaliyyətini, nizam-intizamı və hər bir detal qarşısında məsuliyyət hissini tələb edir.

Yeməkxananın fəaliyyətinə nəzarət edən baş gizir Fərid Əşrəfov yeməkxana rəisidir. Onun əsas vəzifəsi şəxsi heyətin qidalanmasının fasiləsiz təşkilinə, yeməklərin keyfiyyətinə və iş prosesinin düzgün qurulmasına nəzarət etməkdir.

"Bacardığımız qədər keyfiyyətli və müəyyən edilmiş normalara uyğun yeməklər hazırlayırıq. Burada hər bir əməkdaş öz işinə məsuliyyətlə yanaşmalıdır", - deyə baş gizir Fərid Əşrəfov bildirdi.

Onun hərbi xidmət yolu 2020-ci ilin Vətən müharibəsi dövründə də məsuliyyətli tapşırıqlarla davam edib. Həmin vaxt hərbi hissədə xidmət edən Fərid Əşrəfov təminat tapşırıqlarının yerinə yetirilməsində iştirak edib. Müharibə şəraitində qida təminatının əhəmiyyətini yaxından görən müsahibimiz bu təcrübənin xidmət fəaliyyətində xüsusi yer tutduğunu qeyd edir.

Yeməkxanada gündəlik proseslərin təşkilində növbətçilik xidmətinin də mühüm rolu var. Baş gizir Rəcəb Bayramov hazırda yeməkxana növbətçisidir. Onun məsuliyyət dairəsinə yeməyin hazırlanması və paylanması prosesinə, eləcə də yeməkxananın təmizliyinə və səliqə-sahmanına nəzarət daxildir.

"Yeməyin qazanlarda bişirilməsindən tutmuş şəxsi heyətə paylanmasına qədər bütün proseslərə diqqət yetiririk. Təmizlik və səliqə-sahman da işimizin ayrılmaz hissəsidir", - deyə baş gizir Rəcəb Bayramov qeyd etdi.

O, xidmət etdiyi müddətdə yuxarı rəhbərlik tərəfindən fəxri fərman və təşəkkürlə də təltif olunub. Onun üçün işin nəticəsi gündəlik vəzifələrin vaxtında və düzgün yerinə yetirilməsi ilə ölçülür.

Yeməkxananın əsas iş istiqamətlərindən biri də yeməklərin hazırlanmasıdır. Bu prosesdə aşpazların təcrübəsi və peşəkarlığı mühüm əhəmiyyət daşıyır. Baş aşpaz Araz Balayev kollektivin təcrübəli əməkdaşlarındandır. Araz



1969-cu il aprelin 22-də Kürdəmir rayonunda anadan olub. Uzun illərdir əsgərlərin qida təminatının təşkilində iştirak edir. Onun sözlərinə görə, iş günü səhər erkən başlayır. Mətbəxdə hazırlıq görülür, yeməklər bişirilir və müəyyən edilmiş qrafikə uyğun olaraq şəxsi heyətə təqdim olunur.

"Səhər işə gəlib, hazırlığa başlayırıq. Əsas məqsədimiz əsgərlərin yeməklərini vaxtında və lazımi qaydada təmin etməkdir. İşimizin məsuliyyətini dərk edirik və hər gün bu vəzifəni yerinə yetirməyə çalışırıq", - deyə Araz Balayev bildirdi.

Onun sözlərinə görə, xidmət fəaliyyətində yaddaqalan ən məsuliyyətli dövrlərdən biri Vətən müharibəsi zamanı olub.

"Müharibə vaxtı burada minlərlə hərbçinin qida təminatını həyata keçirirdik. Nə lazımdırsa, çalışıb yoluna qoyurduq, əsgərlərin yeməyini və içməyini təmin edirdik. Həmin dövrdə işimiz çox olsa da, üzərimizə düşən tapşırıqları layiqincə yerinə yetirirdik", - deyə o, həmin günləri xatırlayır.

Uzunillik fəaliyyəti ərzində baş aşpaz Müdafiə Nazirliyi və hərbi hissə komandiri tərəfindən müxtəlif təltiflərə layiq görülüb.

Yeməkxanada aşpaz işləyən Bəsti Hüseynova orta məktəbi bitirdikdən sonra maraq göstərdiyi aşpazlıq sənətinə yiyələnib. O, bu peşəni seçməsində yemək hazırlamağa olan sevgisinin əsas rol oynadığını dedi: "Aşpazlığı sevirəm və bu peşəyə də sevərək gəlmişəm. İki ildir burada çalışıram. Fəxr edirəm ki, Vətənimin oğullarına xidmət edirəm. Əsgərlərimiz üçün hazırladığımız yeməklərlə onların gündəlik xidmətinə öz töhfəmizi veririk".

Müsahibimizin Vətənə xidmət anlayışına münasibəti ailəsinin yaşadığı ağrılı hadisələrlə də bağlıdır. Bu səbəbdən hərbi qulluqçulara xidmət etmək Bəsti Hüseynova üçün həm də mənəvi məna daşıyır.

"Əmim oğlu Birinci Qarabağ müharibəsi iştirakçısıdır. Oğlu Zöhrab isə şəhid olub. Ona görə də Vətənə xidmət edən oğullarımıza xidmət etmək mənim üçün xüsusi məna daşıyır. Allah şəhidlərimizə rəhmət eləsin", - deyə o bildirdi.

Yeməkxanada işin fasiləsizliyini təmin etmək üçün əməkdaşlar növbəli qrafik əsasında çalışırlar. Beləliklə, yeməkxanada iş prosesi müəyyən edilmiş rejimə uyğun təşkil olunur. Kollektivdə hər kəsin konkret vəzifəsi olsa da, görülən işlər vahid məqsədə xidmət edir. Yeməkxana rəisi ümumi fəaliyyətə rəhbərlik edir, növbətçi gündəlik proseslərə və qaydalara nəzarət göstərir, aşpazlar isə yeməklərin hazırlanmasını həyata keçirirlər. Bu əmək bölgüsü şəxsi heyətin qida təminatının ardıcıl və nizamlı şəkildə təşkilinə imkan yaradır.

"Yeməkxanada apardığımız müşahidələr və əməkdaşlarla söhbətlərimiz göstərdi ki, burada xidmətin mühüm bir istiqaməti diqqət mərkəzindədir. Fərqli təcrübəyə və peşə yoluna malik insanların birgə fəaliyyəti sayəsində hər gün çoxsaylı hərbi qulluqçunun qida təminatı təşkil olunur. Xüsusilə Vətən müharibəsi zamanı şəxsi heyətin qidalanmasının həyata keçirilməsi bu işin nə qədər böyük məsuliyyət tələb etdiyini bir daha göstərdi.

Onların fəaliyyəti bəzən diqqətdən kənarda qalsa da, hərbi hissədə gündəlik xidmətin təmin olunmasında mühüm yer tutur. Çünki Vətənin müdafiəsi yalnız ön xətdə dayananların deyil, həmin xidmətin etibarlı təşkilinə töhfə verən hər kəsin ortaq məsuliyyətidir. Əsgərin gücünü artıran, onun gündəlik xidmətinə dayaq olan təminat işçilərinin əməyi də bu böyük fəaliyyətin ayrılmaz hissəsidir.

Leytenant
Tamilla HÜSEYNLİ
"Azərbaycan Ordusu"

Hərbi terminlər

Təşviqat mərmisi

Təşviqat mərmisi qarşı tərəfin şəxsi heyəti arasında təşviqat xarakterli çap materiallarının, əsasən vərəqələrin yayılması üçün nəzərdə tutulmuş xüsusi təyinatlı artilleriya sursatıdır. Onun əsas təyinatı hədəfi fiziki cəhətdən məhv etmək deyil, döyüş şəraitində məlumatın qarşı tərəfə çatdırılmasını və mənəvi-psixoloji təsirin göstərilməsini təmin etməkdir. Bu növ sursatın fərqləndirici xüsusiyyəti daxilində çap materiallarının yerləşdirilməsi və atəş zamanı həmin materialların müəyyən əraziyə yayılmasıdır. Mərmi nəzərdə tutulan sahədə açıldıqda vərəqələr ətrafa səpələnir və nəticədə məlumatların daha geniş ərazidə yayılmasına imkan yaranır. Bu üsul çap materiallarının qarşı tərəfin şəxsi heyətinə çatdırılmasına xidmət edir.

Təşviqat mərmiləri vasitəsilə yayılan materialların məzmunu hərbi əməliyyatların xarakterindən və qarşıya qoyulan məqsəddən asılı olaraq müəyyənləşdirilir. Vərəqələrdə təslim olmağa çağırışlar, mövcud hərbi vəziyyət barədə məlumatlar, müraciətlər və digər təşviqat məzmunlu mətnlər yer ala bilər. Belə materiallar vasitəsilə qarşı tərəfin hərbi qulluqçularının məlumatlandırılması, onların döyüş əzminə və mənəvi-psixoloji durumuna təsir göstərilməsi hədəflənir.



Funksional baxımdan təşviqat mərmiləri digər artilleriya sursatlarından fərqlənir. Qəlpəli mərmilər hədəfin atəşlə məhv edilməsinə, tüstülü mərmilər tüstü pərdəsinin yaradılmasına, işıqlandırıcı mərmilər isə ərazinin işıqlandırılmasına xidmət edir. Təşviqat mərmilərinin əsas vəzifəsi isə informasiya materiallarının müəyyən əraziyə çatdırılaraq yayılmasını təmin etməkdir. Bu xüsusiyyət onları xüsusi təyinatlı artilleriya sursatları arasında fərqləndirir.


Təşviqat mərmilərinin tətbiqi hərbi əməliyyatlarda informasiya-psixoloji fəaliyyətin tərkib hissəsi hesab olunur. Onlardan istifadə zamanı yayılacaq materialların məzmunu, hədəf ərazi və döyüş şəraitinin xüsusiyyətləri nəzərə alınır.

Beləliklə, artilleriya vasitəsilə qarşı tərəfin şəxsi heyətinə yalnız atəş təsiri göstərilmir, eyni zamanda, informasiya çatdırılması və psixoloji təsir imkanlarından da istifadə olunur. Rəqəmsal kommunikasiya vasitələrinin, müasir informasiya texnologiyalarının və kütləvi informasiya vasitələrinin (KİV) inkişafı təşviqat materiallarının yayılması imkanlarını xeyli genişləndirib. Bu yeniliklər fonunda çap materiallarının artilleriya vasitəsilə yayılmasını nəzərdə tutan təşviqat mərmilərinin əvvəlki tətbiq əhəmiyyəti müəyyən qədər azalıb. Bununla belə, müasir kommunikasiya imkanlarının məhdud olduğu şəraitdə belə sursatlar alternativ məlumatlandırma vasitəsi kimi öz aktuallığını qoruyur.

Təşviqat mərmisi hərbi termin kimi çap materiallarının artilleriya vasitəsilə yayılmasını təmin edən xüsusi təyinatlı sursatı ifadə edir. Onun mahiyyəti döyüş meydanında məlumatın qarşı tərəfin şəxsi heyətinə çatdırılması və informasiyanın psixoloji təsir vasitəsi kimi istifadə olunması ilə səciyyələnir.

Hazırladı:
Emil MURADLI
"Azərbaycan Ordusu"

İdman



Azərbaycanın 2 boksçusu Avropa çempionu olub

Xorvatiyanın Poreç şəhərində keçirilən U-23 Avropa çempionatında Azərbaycanın daha bir boksçusu qızıl medal qazanıb.

Bilalhəbaşi Nəzərovun (50 kq) ardınca Nicat Alırzayev (70 kq) də fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Nicat Alırzayev finalda Zviad Tçotçua (Gürcüstan) ilə döyüşüb. 5:0 hesabı ilə qələbə qazanan boksçumuz Avropa çempionu olub.

Beləliklə, Azərbaycan millisi 39 ölkədən 276 idmançının qatıldığı qitə çempionatını 4 medalla başa vurub. Bilalhəbaşi Nəzərovla (50 kq) Nicat Alırzayev (70 kq) qızıl, Zidan Hünbətov (55 kq) və Məhəmmədəli Aşıralıyev (60 kq) bürünc mükafat qazanıblar.

Mayor Salamov Nəcəf Yusif oğluna verilmiş MN № 0065361 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Babayev Natiq Səfa oğluna verilmiş AD № 0067456 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Həsiyev Aqşin Şirzad oğluna verilmiş MV № 138436 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Redaktor
mayor
Ceyhun CƏFƏRLİ

Telefon
Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi:
(012) 404-76-22

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
2 saylı xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
Bəxtiyar ƏLİYEV

Lisenziya № 361
Sifariş № 1033
Nüsxə 3653